# Ümummilli lider Heydər Əliyevin Azərbaycan Ədliyyəsinin formalaşmasında xüsusi rolu

Azərbaycan xalqı tarixi bir hadisəni, müstəqil dövlətimizin qurucusu və memarı, azərbaycanlıların milli iftixarı,uşaqların, gənclərin, yaşlıların böyük dostu,ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100-cü ildönümünü qeyd edir. Bu günlər hər birimiz Heydər Əliyevin vətən və millət qarşısında misilsiz xidmətlərini bir daha minnətdarlıq hissi ilə xatırlayırıq. Geniş zəkası, fitri uzaqgörənliyi, dəmir məntiqi, polad iradəsiilə ətrafındakılardan daim fərqlənən Heydər Əliyevin simasında Tanrı xalqımıza XX əsrdə əsl xilaskar bəxş etmişdir.

Bu bir həqiqətdir ki,xalqımızın milli özünüdərki, dövlətçilik ənənələri, vətənpərvərlik hisssinin oyanışı Heydər Əliyevin adı ilə bağlıdır. İllər ötdükcə bu şəxsin əzəmətini daha aydın dərk edir, qoyub getdiyi tarixi irsin ideyalarını yüksək dəyərini dərindən anlayırıq. H. Əliyevin həyat yolu , əməlləri tarixin və xalqın yaddaşına ona görə əbədi həkk edilib ki, o, doğma Azərbaycanı müstəqil bir dövlət kimi dünyaya tanıdıb və Azərbaycanımızın müstəqiliyinin əbədiliyini təmin edib.

Dahi öndərin zəngin dövlətçilik təcrübəsi, siyasi irsi tariximizin ən mühüm və silinməz səhifələrini təmsil edir. Çünki, xalqımız öz dövlətçiliyini dünyəvi, demokratik, hüququ əsaslar üzərində bərqərar olunmasına ulu öndər Heydər Əliyevin qətiyyəti nəticəsində nail olmuşdur.

Ümummilli liderimiz müstəqil dövlətimizin hüquq sistemində ədliyyə orqanlarının rolunu dəfələrlə qeyd etmiş, onun mahiyyətcə təkmilləşdirilməsinə xidmət edən islahatlar həyata keçirmişdir.

1918- ci ildə yaradılan Ədliyyə Nazirliyi sovetlər dövründə dəfələrlə ləğv edilmişdir. Nazirliyin səmərəli dövlət strukturu kimi təşəkkül tapması Heydər Əliyevin adı ilə bağlıdır. Ədliyyə Nazirliyi 1970-ci ildə bərqərar olmuş , onun fəaliyyətini tənzimləyən ən müasir normativ sənədlər qəbul edilmiş, milli kadr hazırlığına xüsusi diqqət yetirilmişdir.

Milli mənafeləri hər şeydən uca tutan uzaqgörən siyasətçi Heydər Əliyev Azərbaycan SSRİ kimi nəhəng bir imperiyanın tərkibində olduğu hələ 70-ci illərdə Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi mövcudluöuna və inkişafına zəmin yaratmaq istiqamətində çox məharətlə tədbirlər həyata keçirirdi.Ölkə iqtisadiyyyatı məhz bu məqsədə uyğun istiqamətlərdə inkişaf etdirilir, milli təhlükəsizlik, hərbi və digər sahələrdə milli kadr korpusu yetişdirilir və sair tədbirlər görülürdü.

H. Əliyev ölkəyə rəhbər gəldikdən təxminən bir il sonra 1970-ci il oktyabrın 27- də Azərbaycan SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSRİ Ədliyyə Nazirliyinin yaradılması ilə bağlı fərman verdi. Ədliyyə Nazirliyi yenidən təşkil olundu.

Vaxtilə Heydər Əliyevin tabeliyində işləmiş, son vaxtlarAzərbaycan Nazirlər Sovetinin hüquq komisiyasına rəhbər olan Eyvaz Əbdürrəhman oğlu Məmmədov ədliyyə naziri təyin olunur.Məhz həmin vaxtdan etibarən Ədliyyə Nazirliyi təşkilati sabitlik əldə etdi ki, bu da onun gələcək inkişafının təməlini qoymuş oldu.

Azərbaycan Ədiyyəsinin inkişafının əsaslı dönüş mərhələsi ümummilli liderimizin ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf edir.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən və ümumilli liderimiz Heydər Əliyev ölkədə yenidən siyasi hakimiyyətə gəldikdən sonra Azərbaycan ədliyyəsinin həyatında yeni dövr başlandı.Bu dövr ədliyyə sistemimizin sürətli inkişafı, fəaliyyət istiqamətlərinin, funksiya və səlahiyyətlərinin genişlənməsi, işinin və strukturunun təkmilləşməsi, öz mahiyyətinə xas hüquqi dövlət və demokratik cəmiyyətlər üçün zəruri olan missiyalarını əldə etməsi ilə xarakterikdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi hüquqi islahatlar çərçivəsində ədliyyə sisteminin hərtərəfli inkiçafı üzrə tarixi əhəmiyyətli qərarlar qəbul olundu, Ədliyyə Nazitliyinə yeni mühüm vəzifələr həvalə edildi, funksiya və səlahiyyətləri genişləndirildi.

Normativ xarakterli bütün layihələrə hüquqi rəyin verilməsi və ekspertizası, dövlət uçotuna və qeydiyyata alınması, habelə siyasi partiyaların, ictimai birliklərin, dini qurumların, həmkarlar itttifaqlarının dövlət qeydiyyatına alınması Ədliyyə Nazirliyinin səlahiyyətinə aid edildi. Nazirliyin tərkibində icra xidməti, istintaq aparatı,bələdiyyələrin fəaliyyətinə nəzarət insitutu təsis edildi, pentensiar sistemin fəaliyyəti təkmilləşdi, hüquqi şəxslərin , əhalinin dövlət reyestri yaradıldı. Bütün qeyri-tibb məhkəmə ekspertizalarının aparılması Ədliyyə Nazirliyinə həvalə edildi. Notariat orqanlarının fəaliyyəti, Vətəndaşlıq Vəziyyəti Aktlarının dövlət qeydiyyatına alınması işi təkmilləşdirildi. Ədliyyə Nazirliyi yanında Hüquq Tədris Mərkəzi yaradıldı.

Ümumliderin rəhbərliyi ilə həyata keçirilən məhkəmə hüquq islahatları nəticəsində Prezident yanında Məhkəmə-Hüquq Şurası yaradılaraq hakim korpusunun formalaşdırılması məqsədilə zəruri tədbirlər görüldü.

Notariat və Qeydiyyat orqanlarının iqtisadicə hüququ proseslərin tənzimləməsində mühüm əhəmiyyəti nəzərə alınaraq, bu orqanlarda da əsaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza yaradılmış, Ailə Məcəlləsi, "Notariat haqqında" qanun və digər qanunvericilik aktları qəbul edilmişdir. Möhtərəm Heydər Əliyevin 6 mart 2000-ci il tarixli Fərmanı ilə qeydiyyat orqanlarının idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı mühüm qərar qəbul olunmuş, bu orqanların ikili tabeçiliyinə son qoyularaq, onlar Ədliyyə Nazirliyinin strukturuna daxil edilmişdir.

Bütün sahələrdə əhalinin rifahını, ona göstərilən hüquqi xidmətin keyfiyyətinin yaxşılaşdırması məsələləri daim diqqət mərkəzində saxlayan, hər bir fərdin maraq və mənafelərinin təmin olunmasını önə çəkən ulu öndərin "Azərbaycan Respublikasında vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi haqqında" 31 iyul 2002-ci il tarixli Fərmanı ilə bu sahədə müəyyən səlahiyyətlər yerli icra hakimiyyətlərinə verilmişdir.

Ədliyyə işçilərində mənəvi stimul yaradılması və tarixi irsin qorunması məqsədi ilə H.Əliyevin 11 noyabr 2001-ci il tarixli sərəncamı ilə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur. Bu yüksək etimad və diqqət hər bir ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq və iftixar hissi ilə qarşılanmışdır.

Heydər Əliyev siyasətini uğurla, yaradıcılıqla davam etdirən Prezident İlham Əiyev Azərbaycanın müstəqilliyini gündən günə möhkəmləndirir, milli mənafelərimizi cəsarətlə və uğurla müdafiə edir, qloballaşmanın doğurduğu əngəlləri və maneələri qətiyyətlə dəf edir. Ata vəsiyyətinə əməl edən möhtərəm Prezidentimiz 44 günlük müharibə ilə ermənierin işğalında olan torpaqlarımızı geri alaraq zəfər bayrağını göylərə qaldırdı.

Beləliklə,Azərbaycan xalqı Heydər Əliyev yolu ilə öz parlaq gələcəyinə doğru inamla,sürətlə irəliləyir.

Qüdrətli dövlət xadimi Heydər Əliyevin 100 ilik yubileyi tək azərbaycanlılar üçün deyil, bütün türk dünyası üçün əlamətdar bayramdır. Ulu öndərin işıqlı xatirəsi bizim üçün əziz və unudulmazdır.n əziz və unudulmazdır.

**Zinyət BAĞIROVA,**
**Qəbələ rayon Qeydiyyat şöbəsinin rəisi Kiçik ədliyyə müşaviri.**

# "Missiya" qısametrajlı bədii film

Qəbələ rayon Mədəniyyət Mərkəzində "Şəhid analarına dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə "Zəfərin şahinləri - şəhidlər qonaq gəlib" layihəsi çərçivəsində Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr edilən "Missiya" qısametrajlı bədii filmin təqdimat mərasimi keçirilib. Rayon icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların kollektivlərinin, şəhid ailələrinin, qazilər və müharibə iştirakçılarının, rayon ictimaiyyətinin iştirak etdiyi tədbirdə torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Çıxış edənlər Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılan Vətən müharibəsində şəhid olanların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini qeyd etmiş, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərindən danışmış, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirmişlər. Sonda "Missiya" filmi nümayiş etdirilmişdir.



## Ümumtəhsil müəssisələrində Anım Günü

Qəbələ rayonunun bütün ümumtəhsil müəssisələrində 27 sentyabr - Anım Günü ərəfəsində silsilə tədbirlər – dəyirmi masalar, açıq dərslər, foto və rəsm sərgiləri, idman yarışları keçirilmiş, vətənin bütövlüyü uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilmişdir.Tədbirlərdə çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Alı Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində Ordumuzun əsgər və zabitlərinin şərəfli döyüş yolundan bəhs etmiş, qazanılmış tarixi Qələbədən danışmışlar. 27 sentyabr tarixində isə bütün təhsil müəssisələrində ilk dərslər "Anım Günü"nə həsr olunmuş, şagirdlərə Vətən müharibəsində şanlı Ordumuzun qazandığı Zəfər haqqında, eləcə də, müqəddəs torpaqlarımızın düşmən tapdağından azad olunmasının əhəmiyyəti barədə ətraflı məlumat verilmişdir. Şagirdlərin ifasında vətənpərvərlik mövzusunda, Qələbəni təmsil edən şeirlər səslənmişdir.

# Təhsilimiz bu il – nəticələr, nailiyyətlər

2022-2023-cü tədris ili üzrə Qəbələ rayonunun 53 tam orta məktəbindən 1220 nəfər məzun



*Nurgül Əhmədova.*

olub. 1220 məzundan 36 nəfər orta məktəbi fərqlənmə attestatı ilə bitirib. Ali məktəblərə daxil olmaq üçün sənəd vermiş 750 nəfər məzundan 553 nəfəri tələbə adını qazanıb. Qəbul imtahanlarında məzunlardan 74 nəfəri 500-700 arası bal toplayıb.

Onlardan 17 nəfəri 600 baldan yuxarı nəticə göstərib. Ən yüksək nəticəni Şirvan Bulqədirov adına şəhər 5 nömrəli tam orta məktəbin məzunu Nurgül Əhmədova (673 bal ) göstərib. Qəbələ rayon ümumtəhsil məktəblərindən Ə. Abdurahmanov adına şəhər 3 nömrəli tam orta məktəb, N. Apayev adına şəhər 4 nömrəli tam orta məktəb, Ş. Bulqədirov adına şəhər 5 nömrəli tam orta məktəb, Vəndam qəsəbə 1 nömrəli tam orta məktəb, Nohurqışlaq kənd tam orta məktəb, Vəndam qəsəbə 2 nömrəli tam orta məktəb buraxılış imtahan nəticələrinə görə fərqlənən məktəblər sırasındadır.

**"Qəbələ"**

# Şəhərimizi təmiz saxlayaq

Yaxın günlərdə şəhərin ərazisindən kecən cay və kanalların sanitariya vəziyyəti ilə əlaqədar "Qəbələ" qəzeti redaksiyası və rayon Gigiyena və Epidemiologiya Mərkəzinin nümayəndələri ilə reyd kecirilmişdir. Reyd zamanı şəhər ərazisindən kanalların kecdiyi bəzi sahələrdə sanitariya norma və qaydaları pozulduğu aşkar olunmuşdur.

Qəbələ şəhəri yerləşən ərazidən 2 cay və 3 kanal kecir. Caylardan ən böyüyü olan Dəmiraparan cayı şəhərin kənarından kecdiyinə görə bu cay yatağının həmcinin, cay suyunun cirklənməsi müşahidə olunmur.

Şəhər ərazisindən kecən kanallardan birinə su Dəmiraparan cayından qoşulur. Bu kanal Zərifə Əliyeva parkının ərazisindən, Polad Həşimov kücəsinin kənarı ilə kecib, Nəsimi, Samir Kərimov kücələrinin kənarı ilə həmin kücələrdə yerləşən bir sıra vətəndaşların evinin yanından kecərək rayon mərkəzi xəstəxanasının yaxınlığından, daha sonra mərkəzi bazarın qarşısından kecərək Zarağan kəndi ərazisinə axır.

Kanalın Zərifə Əliyeva Parkından və Polad Həşimov kücəsindən kecən həmcinin, rayon mərkəzi xəstəxanasının yanından və mərkəzi bazarın qarşısından kecən hissəsində kanalın kənarları cay daşı ilə hörülmüş, dibinə beton tökülmüşdür. Kanalın digər hissəsində isə bu cür təmir işləri aparılmamışdır. Hazırda kanalın bəzi yerlərində kanal divarına vurulmuş daşların qopması, kanal dibinə tökülmüş betonun dağılması halları müşahidə olunmuşdur.

Reyd zamanı kanalın Zərifə Əliyeva Parkından kecən və Polad Həşimov kücəsinin kənarından kecən hissəsinin təmiz və səliqəli olduğu müşahidə olunmuşdur. Lakin bu kanalın Nəsimi, Samir Kərimov kücələrində yerləşən fərdi yaşayış evlərinin yanından kecən hissəsində bəzi yerlərdə kanalın kol-kosdan təmizlənmədiyi, yaxınlıqda yaşayan bəzi

(Ardı 8-ci səhifədə).